MİLLİ QURTULUŞ
- SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2021

Şərəf günü

İyunun 15-i tariximizin Milli Qurtuluş Günüdür. 1993-cü ilin həmin günündən xilaskarlıq missiyasına başlayan Heydər Əliyev əbədi müstəqilliyimizin, müasir dövlətimizin təməllərini yaratdı. Aradan ötən 28 il isə Azərbaycanın intibah tarixidir.

Əsl milli hakimiyyət Heydər Əliyevlə, Milli Qurtuluşla gəldi

Əli HÜSEYNLİ,
Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini:

- Ötən əsrin 90-cı illərinin əvvəllərində Qarabağda separatizm geniş vüsət almışdı. Mafioz qruplarda birləşmiş hakimiyyət hərisləri isə özlərinin şəxsi maraqlarına xidmət edən fəaliyyətlə məşğul idilər. AXC-Müsavat cütlüyü xalqa xəyanət yolu tutmuşdu. 1992-ci ilin yaz aylarından başlanan daxili hərc-mərclik, siyasi qüvvələrin çəkişməsi cəbhə bölgəsinin nəzarətdən kənar qalmasına və Qarabağ savaşında ermənilərin üstünlüyü ələ almasına gətirib çıxarmışdı. Bir-birinin ardınca strateji cəhətdən ən əhəmiyyətli ərazilərin itirilməsi ilə müşayiət olunan bu olaylar daha çox AXC-Müsavat cütlüyünün Azərbaycan dövlətinə qarşı satqın və xəyanətkar mövqeyi ilə əlaqəli idi.

1993-cü il iyunun 9-da Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və bölgədə davam edən qiyamın və qardaş qırğınının qarşısını aldı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Həmin gün xalqın gələcəyə ümidi yarandı. Belə ki, böhrandan, xaosdan, vətəndaş müharibəsindən, səfalətdən qurtulacağına inamı artdı. Ona görə də həmin tarix Milli Qurtuluş Günü kimi tarixə düşdü.

1993-cü ilin dekabr ayında Heydər Əliyev bütün daxili çəkişmələri kənara qoyub torpaqları azad etmək naminə Azərbaycan hərbçilərini səfərbər olmağa çağırdı. Azərbaycan Ordusunun həmin günlərdə başlayan hücum əməliyyatları 1994-cü ilin yanvarında Füzuli rayonunun bir hissəsinin, Horadizin azad olunması ilə başa çatdı. Heydər Əliyev, ilk növbədə, Azərbaycanı gücləndirməyi, iqtisadiyyatı bərpa etməyi, ordu quruculuğu istiqamətində işə başlamağı qarşıya məqsəd qoydu. Heydər Əliyev ölkəmizi tarixin sınaqlarından üzüağ çıxarmağı bacardı. Ölkədə ictimai siyasi sabitlik ümumən bərqərar olmağa başladı. 1995-ci il noyabrın 12-də bilavasitə Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış müstəqil Azərbaycanın Konstitusiyası qəbul olunduqdan sonra dinc quruculuq işləri yeni keyfiyyətdə davam etdirilməyə başlandı.

Zaman keçdikcə Qurtuluş Gününün əhəmiyyətini daha yaxşı dərk edirik. Azərbaycanın qurtuluşu Heydər Əliyevlə bağlıdır. Milli Qurtuluş Günü Azərbaycanda milli hakimiyyətin bərqərar olduğu gündür. Heydər Əliyevə qədər Azərbaycanda hakimiyyətdə olmuş qüvvələrin heç biri milli qüvvələr olmayıb. Əsl milli hakimiyyət Heydər Əliyevlə, Milli Qurtuluşla gəldi. Azərbaycan xalqı xəyanətkarlardan qurtularaq ümid etdiyi, arzuladığı, inandığı, güvəndiyi Liderinə qovuşdu.

Azərbaycan xalqı hər zaman əmin idi ki, məhz Heydər Əliyev siyasətinin davam etdirilməsi ilə torpaqlarımız işğaldan azad edilə və ərazi bütövlüyümüz bərpa oluna bilər. Belə də oldu. Azərbaycan tarixi Zəfərə imza ataraq ərazi bütövlüyünü bərpa etdi. Azərbaycanda yaşayan bütün xalqlar dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Vətən müharibəsində iştirak etdilər. Bu, Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin məntiqi nəticəsidir. Dağlıq Qarabağ münaqişəsi Ali Baş Komandanın uğurlu siyasəti, qətiyyəti, liderliyi, ordumuzun böyük qəhrəmanlığı ilə həll olundu.

Azərbaycan xalqının ən böyük nailiyyəti müstəqil siyasət həyata keçirən güclü dövlətidir. Çox az xalqlar belə dövlət qura biliblər. Azərbaycan dövləti də həmin dövlətlərin sırasındadır. Bunun səbəbi Ulu Öndərin əsasını qoyduğu siyasətin Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

15 iyun müqəddəs tarixdir

Tahir RZAYEV,
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri:

- 15 iyun tarixi Azərbaycan xalqı, dövləti üçün unudulmaz, müqəddəs gündür. Ali məqsədlərə önəm vermək, insanların azadlığını, xoşbəxtliyini, gələcəyini təmin etmək, onlarda ümid, inam yaratmaq müqəddəsliydir. Bu baxımdan 15 iyun tarixi Azərbaycanın ən unudulmaz müqəddəs günlərindən biridir.

Azərbaycan xalqı iki dəfə özünün ali məqsədinə, arzusuna çatdı. 1918-ci ildə xalq öz müstəqilliyini əldə etdi, ancaq onu qoruyub saxlamaq mümkün olmadı. 1991-ci ildə yenidən öz müstəqilliyimizi bərpa etdik və yeni bir dövrün başlanğıcına qədəm qoyduq. Ancaq bu müstəqilliyi əldə edəndən sonra çox ciddi çətinliklərlə, problemlərlə qarşılaşdıq. Xarici müdaxilə, daxildə olan qüvvələrin qarşıdurması, xaos, özbaşınalıq ölkəni vətəndaş müharibəsi səviyyəsinə gətirib çıxarmışdı. Dövlət müstəqilliyimiz əldən gedirdi. AXC-Müsavat cütlüyü ölkəni idarə edə bilmirdi. Torpaqlar qarış-qarış, kəndkənd, şəhər-şəhər ermənilər tərəfindən işğal olunurdu. Heç bir təşəbbüs, heç bir təşkilatçılıq görünmürdü və demək olar ki, insanlar ümidsiz bir halda yaşayırdılar. Gələcəyə inam itmişdi. Bu vəziyyətdən istifadə edən istər xaricdəki, istərsə də daxildəki qüvvələr ölkəni talan edirdilər, viran qoyurdular.

Məhz belə bir vaxtda insanlar inandıqları, etibar etdikləri, fəaliyyəti ilə yaxından tanış olduqları Heydər Əliyevə müraciət etdilər. Ümummilli Liderin 1993-cü il 15 iyun tarixində hakimiyyətə gəlişi ilə Azərbaycan xalqı çox ağır bəlalardan, müstəqilliyin əldən getməsindən, faciələrdən, torpaqların daha geniş miqyasda zəbt olunmasından xilas oldu. Ona görə də bu gün xalqımız keçmişə nəzər salarkən, həmin günlərin acılarını heç zaman unutmurlar. Qurtuluş tarixi olmasaydı, biz bugünkü qələbələrdən, yüksək göstəricilərdən, beynəlxalq aləmdə qazandığımız nailiyyətlərdən danışa bilməzdik. Məhz həmin günün təntənəsi bu qələbələr üçün zəmin hazırladı, möhkəm bünövrə oldu.

Bu gün Azərbaycan dünyanın ən inkişaf edən ölkələrindən biridir. Artıq Azərbaycan beynəlxalq aləmdə tanınan bir ölkədir. Bu gün Azərbaycan düşmən üzərində tarixi qələbə qazanan, zəfər əldə edən, qalib bir ölkədir. Əlbəttə ki, bu qalibiyyət, bu zəfər, bu nailiyyətlər Ulu Öndərin adı ilə bağlıdır, onun təməlini qoyduğu, həyata keçirdiyi proqramların, o möhtəşəm layihələrin nəticəsidir. Bu siyasəti Prezident İlham Əliyev uğurla həyata keçirir, ata vəsiyyətlərinə dönmədən əməl edir.

Cənab Prezident Ulu Öndərin ən müqəddəs arzusunu həyata keçirdi və düşmən üzərində tarixi qələbə qazandı. Ulu Öndərin ən böyük arzusu Qarabağı azad etmək, Şuşaya getmək, işğal altında olan torpaqları düşməndən qurtarmaq idi. Cənab Prezident bunu yerinə yetirdi. Ona görə də bu ilin Qurtuluş Günü bizim üçün daha əzizdir, daha uğurludur, daha möhtəşəmdir. Çünki biz 30 ildən sonra ilk dəfə olaraq, dövlətimizin ərazisini bütöv görürük və Qurtuluş Gününü zəfər qazanan bir ölkənin, qalib dövlətin vətəndaşları kimi qeyd edirik. Nə qədər ki, Azərbaycan var, nə qədər ki, Azərbaycan xalqı var Ümummilli Lider Heydər Əliyev də bizimlə yaşayır, onun ideyaları qalib gəlir və Qurtuluş Günü özünün müqəddəsliyini, möhtəşəmliyini, əbədiliyini yaşadır.

Heydər Əliyev tarixi missiyasını qətiyyətlə yerinə yetirdi

Nəsib MƏHƏMƏLİYEV,
Milli Məclisin deputatı:

- Bu gün Azərbaycanın müstəqillik salnaməsinin ən önəmli hadisələrindən olan Milli Qurtuluş Gününün 28-ci ili tamam olur. Xalqımızın və dövlətimizin indiydək əldə etdiyi bütün uğurların, nail olduğu yüksəlişin, dinamik inkişafın təməli 1993-cü il iyunun 15-də əbədiyaşar şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə qoyuldu.

Həmin günlərdə haqlı olaraq hər kəs, o cümlədən ölkədəki böhranlı vəziyyətə bais olmuş siyasi qüvvələr də vəziyyətdən çıxış yolunu məhz Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü. Ona görə 1993-cü il iyunun 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycan xalqının və dövlətçiliyinin nicat və qurtuluş yolu oldu. Heydər Əliyevin gəlişi ümumxalq bayramına çevrildi, çünki həmin gün ürəklərdə kök atmış ümidsizlik və iztirablara son qoyuldu.

Heydər Əliyev Bakıya gəldiyi ilk gündən xilaskarlıq missiyasını öz üzərinə götürərək Gəncəyə səfər etdi, baş vermiş hadisələrlə yerində maraqlandı. Ulu Öndərin müdrik siyasətçi və ağsaqqal kimi, ilk növbədə, vətəndaş qarşıdurmasının, qardaş qırğınının qarşısını aldı. Bununla da qısa müddət ərzində faciələr həkk olunmuş müstəqillik tariximizə növbəti qanlı səhifənin yazılmasına imkan vermədi. Elə bu amillər də Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsində əsas rol oynadı. Eyni zamanda Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi xalqın əsas tələb və istəyi olmaqla, sosial sifarişə və siyasi zərurətə çevrilmişdi və Ali Sovet bunları nəzərə almaya bilməzdi.

1993-cü ilin iyununda bir tərəfdən erməni hərbi birləşmələri hücumlarını genişləndirir, digər tərəfdən separatçı qruplar öz fəaliyyətlərini artırırdılar. Belə bir vaxtda Ali Sovetə Sədr seçilən Heydər Əliyevin qarşısında olduqca ağır və gərgin vəzifələr dururdu. Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə Azərbaycanda baş qaldırmış separatizmə son qoyuldu. Bu baxımdan Ulu Öndərin xalqımız qarşısında ən mühüm və tarixi xidmətlərindən biri Azərbaycanın parçalanmasına çalışan xarici dairələrin planlarını iflasa uğratması idi. Eyni zamanda həmin dövrdə hakimiyyətsizliyin və anarxiyanın nəticəsi kimi kəskinləşmiş kriminogen vəziyyət də məhz Heydər Əliyevin sayəsində müsbətə doğru dəyişdi, geniş yayılmış cinayətkarlığın qarşısı alındı.

Heydər Əliyevin qətiyyətinin, xarizmasının, siyasi uzaqgörənliyinin qarşısında həlli mümkün olmayan problem yox idi. 1993-cü ilin iyun ayının 15-dən sonra cərəyan edən proseslər ölkəmizə xarizmatik və qətiyyətli liderin, əsl siyasətçinin rəhbərlik etməsindən xəbər verirdi. O siyasətçidən ki, Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən qurtardı. Ulu Öndərin xilaskarlıq missiyası ilə gəlişi dövlətçilik tariximizin şanlı səhifəsinə daha bir şanlı gün yazdı. 15 iyun tarixə Milli Qurtuluş Günü kimi daxil oldu.

Milli Qurtuluş Gününü hər birimiz fəxarət hissi ilə qarşılayır, bu tarixlə bağlı dərin iftixar və qürur hissi keçiririk. Çünki Azərbaycanın ötən 28 ildəki bütün nailiyyətləri başlanğıcını məhz Milli Qurtuluşdan götürdü. Milli Qurtuluşla yaradılan təməllər üzərində İlham Əliyev Azərbaycanı dünyada söz sahibi olan güclü dövlətə çevirib. Cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə İkinci Qarabağ müharibəsində qazandığımız Zəfər də Milli Qurtuluş Günündən başlanan və möhtəşəm uğurlarla zəngin olan yüksəlişin qürurdoğuran məntiqi nəticəsidir. Tanrı dövlətimizi, xalqımızı və Prezidentimizi hifz etsin, bayramınız mübarək!

Ulu Öndər Heydər Əliyev dövlətçiliyimizi bütün təhlükələrdən xilas etdi

Müşfiq MƏMMƏDLİ,
Milli Məclisin deputatı:

- Azərbaycanın müasir tarixində elə hadisələr olub ki, onlar yeni bir mərhələnin başlanğıcı kimi dövlətçiliyimizin salnaməsinə əbədi həkk olunub. Belə hadisələrdən biri xalqımızın dahi oğlu, Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında öz xilaskarlıq missiyasını yerinə yetirmək üçün xalqın tələbi ilə hakimiyyətə gəlişidir. Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Ali Sovetin Sədri seçilməsi ilə başlanan xilaskarlıq missiyası bu gün qürurla fəxr etdiyimiz güclü Azərbaycan dövlətinin qurulması ilə nəticələndi.

1993-cü ilin tələtümlü iyun günlərində Azərbaycanda cərəyan edən siyasi-hərbi proseslərin və vətəndaş qarşıdurmasının nəticə etibarilə dövlətimizin parçalanması və ya müstəqilliyimizin itirilməsi ilə məntiqi sonluğa çatması qaçılmaz idi. Hadisələrin axarını, siyasi çəkişmələrin və artıq hərbi müstəviyə qədəm qoymuş hakimiyyət uğrunda mübarizənin gedişatını başqa cür proqnozlaşdırmaq sadəcə mümkün deyildi. Müstəqilliyimizin yeni qazanılması, müharibə vəziyyətində olmağımız tamamilə fərqli bir siyasət yürüdülməsini, xüsusən dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi üçün təxirəsalınmaz addımların atılmasını zəruri etsə də, hakimiyyətdə olan AXC-Müsavat cütlüyü tamamilə fərqli yol tutmuşdu. Dövlətçilik anlayışı sanki onlara yad idi.

Xalqın sabaha inamı itsə də, ümidlər tükənməmişdi. Buna səbəb isə Heydər Əliyev faktoru idi. O dövrdə Yeni Azərbaycan Partiyasının yaradılması, cəmiyyətin bütün zümrələrinin nümayəndələrinin Heydər Əliyevə müraciəti məhz Ulu Öndərə olan inamdan irəli gəlirdi. Böyükdən kiçiyə kimi hər kəs əmin idi ki, Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə ölkəmizin başı üzərini almış təhlükələr sovuşacaq, hərbi-siyasi böhran başa çatacaq. Heydər Əliyev də Bakıya gəlişinin əsas qayəsini, mənasını, ilk növbədə, xalqın ən böyük sərvəti saydığı müstəqilliyin qorunub saxlanmasında, ölkəni başına götürmüş böhranın aradan qaldırılmasında görürdü. Hətta siyasi böhran dərinləşdikcə başlarını itirmiş iqtidar təmsilçiləri də dərk edirdilər ki, Heydər Əliyev təcili Bakıya gəlib proseslərə müdaxilə etməsə, dövləti və xalqı fəlakətdən qurtarmaq mümkün olmayacaq.

İyunun 9-da Naxçıvandan Bakıya gələn Heydər Əliyev öz müdrikliyi ilə cəmi bir neçə günə ölkədə vəziyyətin nisbətən sabitləşməsinə nail oldu. İyun ayının 15-də isə Ulu Öndərin Ali Sovetin Sədri seçilməsi xalqımızın milli qurtuluşunun təməlini qoydu. Aradan illər ötdükcə Azərbaycan daha da gücləndikcə, inkişaf etdikcə, Heydər Əliyevin o ağır dövrdə gördüyü işlərin mahiyyətini, məzmununu, mürəkkəb şəraitdə hansı çətinliklərə qalib gəldiyini daha dərindən anlayırıq. Bəli, Heydər Əliyev hər siyasətçinin edə bilmədiyi tarixi bir missiyanı qətiyyətlə yerinə yetirdi, dövlətçiliyimizi və müstəqilliyimizi bütün təhlükələrdən xilas etdi.

Heydər Əliyev müstəqil dövlətçiliyimizin təməllərini yaratdı və öz tarixi xilaskarlıq missiyasının nəticəsində müasir Azərbaycan dövlətinin banisi oldu. Bu gün dövlətimiz möhtərəm İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin müəyyən etdiyi yolla inamla irəliləyir, tarixini yeni uğurlarla zənginləşdirir. Ötən il Vətən müharibəsində qazanılan qələbə, ərazi bütövlüyümüzün bərpası da Heydər Əliyev ideyalarının davamının nəticəsidir. Bu gün hər birimiz haqlı olaraq dövlətimizin inkişafı, nailiyyətləri və qələbələri ilə fəxr edir, öyünürük. Vətən müharibəsindəki Qələbədən sonra isə Milli Qurtuluş Gününü daha böyük qürur hissi ilə qarşılayırıq.

Heydər Əliyev müstəqilliyimizi əbədi etdi

Könül NURULLAYEVA,
Milli Məclisin deputatı:

- Azərbaycan xalqı azadlığı, müstəqilliyi naminə çox ağır sınaqlardan keçib. Bu sınaqlar, keçilən ağır və keşməkeşli yollar sübut etdi ki, qüdrətli və möhkəm dövlət olmadan müstəqillik də mümkün deyil. Bu baxımdan tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun tarixi bütün xalqımız üçün çox əzizdir. Bu tarixi yaradan isə müstəqilliyimizi əbədi edən, müasir Azərbaycan dövlətini quran, onu möhkəmləndirən və inkişaf yoluna çıxaran, öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrilən Heydər Əliyevdir.

1993-cü ilin iyununda baş verənlər, hərbi qiyam, Gəncə hadisələri mövcud hakimiyyətin iqtidarda olduğu bir il ərzində idarəçilikdə buraxılan kobud səhvlərin, səbatsızlığın və bunun nəticəsində güclənən neqativ siyasi proseslərin nəticəsi idi. Müstəqilliyimizi yenicə qazandığımız, müharibə vəziyyətində olduğumuz dönəmdə tamamilə fərqli bir siyasət yürüdülməsi, xüsusən dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi üçün təxirəsalınmaz addımlar atmaq əvəzinə hakimiyyətdə olan AXC-Müsavat cütlüyü tamamilə fərqli yol tutmuşdu. Dövlətçilik anlayışı sanki onlara yad idi. Əslində milli xəyanət üzərində, Şuşa və Laçının işğalına səbəb olmaqla hakimiyyətə yiyələnmiş bir siyasi qrupdan dövlətin və xalqın xeyrinə nəsə gözləmək də sadəlövhlük olardı.

Proseslər, hadisələr bizi sürətlə müstəqilliyimizin itirilməsinə doğru aparırdı. Separatçılıq meyillərinin dərinləşməsi ölkəni parçalanmaq təhlükəsi qarşısında qoymuşdu. Belə bir vəziyyətdə bütün diqqətlərin Naxçıvana yönəlməsi və Heydər Əliyevin təkidlə Bakıya dəvət olunması müdrik və uzaqgörən ümumxalq qərarı oldu. Çünki ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri, Gəncədə başlanmış qardaş qırğınını, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü yalnız bu böyük insan aradan qaldıra bilərdi. Odur ki, Naxçıvana Ulu Öndərin ünvanına yüzlərlə məktub, teleqram göndərilirdi.

Həmin ağır və mürəkkəb dövrdə Ulu Öndərin Bakıya dəvət olunması, iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi tarixin gedişatını dəyişdi. Heydər Əliyevin yüksək idarəçiliyi sayəsində Azərbaycanda siyasi böhrana son qoyuldu, vətəndaş qarşıdurmasının qarşısı alındı, müstəqilliyimizin itirilməsinə, dövlətimizin parçalanmasına aparan neqativ proseslər bitdi.

Beləliklə, Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biri odur ki, dahi şəxsiyyət mürəkkəb bir şəraitdə, o cümlədən respublikamız ətrafında dərin geopolitik ziddiyyətlərin mövcud olduğu bir dövrdə Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Azərbaycanda dövlətçilik ənənələri möhkəmləndi.

Ötən 28 ildə Azərbaycan çox dəyişib, inkişaf edib, müstəqilliyini və dövlətçiliyini daha da möhkəmləndirib. Bu illərdə Azərbaycan dünya birliyində özünə layiqli yer tutub, regional və qlobal miqyasda söz sahibinə, Cənubi Qafqazın liderinə çevrilib. 1993-cü ilin iyununda, ölkəmizin parçalanmaq, müstəqilliyimizin itirilmək təhlükəsi yaşandığı ərəfədə biz bu günkü uğurlarımızın yaxın gələcəkdə olacağını təsəvvür belə edə bilməzdik. Amma bunlar baş verdi, çünki 1993-cü ilin ağrı-acılı iyun günlərində Azərbaycan xalqı ən doğru və müdrik seçimini edərək Ulu Öndər Heydər Əliyevə üz tutmuşdu.

Ötən il Vətən müharibəsində qazanılan möhtəşəm hərbi-siyasi Qələbə ilə xalqımız 1993-cü ilin Qurtuluşundan sonra növbəti şərəfli tarixini yazdı. Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorudu, dövlətimizin etibarlı təməllərini yaratdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev isə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, dəmir yumruqla Ermənistanın işğal siyasətinə son qoydu. Müstəqillik və dövlətçilik salnaməmizin mühüm səhifələri olan hadisələrin hər biri xalqımızın milli qürur mənbəyidir.

Müasir dövlətimizin bünövrəsinin qoyulduğu gün

Cəbi QULİYEV,
Milli Məclisin deputatı:

- Azərbaycan xalqı tarixinin ən şərəfli və şöhrətli günlərini yaşayır. Hər birimiz Vətən müharibəsindəki möhtəşəm qələbənin təsiri altındayıq. Çünki cənab Prezident İlham Əliyevin müdrik siyasətinin və qətiyyətinin nəticəsi olan bu Qələbə dövlətimizin həyatında tamamilə yeni mərhələnin başlanğıcı oldu. İndi bütün dünya Azərbaycanı Cənubi Qafqazın yalnız lideri deyil, həm də qalib dövləti kimi tanıyır.

Vətən müharibəsi Qələbəsinin fonunda dövlət və milli bayramlarımız da möhtəşəm görünür. Bu baxımdan 28-ci ili tamam olan Milli Qurtuluş Gününü də tamamilə fərqli ab-havada, qalib dövlətin vətəndaşları olaraq qarşılayırıq.

Müstəqilliyimizin ilk illəri tariximizdə dərin iz buraxıb. Xaotik proseslərin, dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq respublikamız Xalq Cümhuriyyətinin taleyini yaşamağa çox yaxın olub. Məhz belə bir vaxtda Azərbaycan xalqı ən müdrik, ən doğru addımını ataraq özünün sınanmış oğlu Heydər Əliyevi təkidlə hakimiyyətə səsləyib. Çünki xalq bilirdi ki, yalnız Heydər Əliyev kimi böyük şəxsiyyət ölkəmizi başının üstünü almış bütün təhlükələrdən xilas etmək, dövlət müstəqilliyimizi yaşatmaq kimi çətin bir missiyanın öhdəsindən gələ bilər.

Bu inam həm də Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti ilə bağlı idi. Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü xalqımızın müstəqillik mücadiləsinin ən şərəfli səhifələrindən biridir. 1990-cı ildə Naxçıvana qayıdan, burada üçrəngli bayrağımızı ucaldan Ulu Öndər sonrakı dövrdə Naxçıvanı Ermənistanın işğalından qətiyyətlə qorumuş, blokada şəraitində olan muxtar respublikanın üzləşdiyi sosial-iqtisadi çətinliklərin aradan qaldırılmasına nail olmuşdu. Azərbaycan xalqı bütün bunları görürdü və ona görə həmin ağır günlərdə ölkəni ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə inanırdı.

1993-cü il iyunun 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi və iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi müstəqillik tariximizin ən böyük siyasi hadisəsi oldu. Ulu Öndərin ölkənin ali qanunvericilik orqanına sədr seçilməsi sözün əsl mənasında siyasi qayıdış idi. Azərbaycanın işıqlı gələcəyinin təməlinin qoyulduğu 15 iyun tarixi haqlı olaraq əsl qurtuluş, xalqımızın fəlakətlərdən xilas olub qüdrətli bir dövlətin bünövrəsinin qoyulduğu gün kimi tariximizə həkk olundu. Milli Qurtuluş Gününü qədirbilən xalqımız hər zaman əziz tutur, hər il böyük sevinc və fərəh hissi ilə qeyd edir.

Azərbaycanın müstəqillik dövründə bütün uğurları Milli Qurtuluş Günündən başlayır. Azərbaycan gəncliyinin də milli intibah dövrü öz başlanğıcını məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından götürür. Ulu Öndərin yaratdığı və Prezident İlham Əliyevin daha da möhkəmləndirdiyi milli bünövrə və hərtərəfli imkanlar sayəsində artıq gənc nəsil respublikamızda cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilib. Vətən müharibəsində də Azərbaycana qələbə sevincini yaşadanlar gənc nəslin nümayəndələri oldular. Beynəlxalq idman və elm yarışlarındakı qələbələrlə də xalqımızı sevindirən gənclərimizdir. Azərbaycan gənci həm də dövlət idarəçiliyində ona bəslənən etimadı uğurla doğruldur, seçkili orqanlarda öz seçicilərini layiqincə təmsil edir.

Bu gün Ulu Öndər Heydər Əliyev ideyalarından ilham alan respublikamız möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, güclənir, qazandığı uğurlarla regionun aparıcı dövləti kimi mövqelərini möhkəmləndirir. 1993-cü ilin 15 iyundan başlayan bu yol Azərbaycanı yalnız və yalnız qələbələrə aparır.

Qurtuluşla başlanan inkişaf

İltizam YUSİFOV,
Milli Məclisin deputatı:

- Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsi olaraq bu gün Azərbaycan dövləti tarixinin ən qüdrətli dövrünü yaşayır. Hər bir azərbaycanlının qürur mənbəyinə çevrilən uğurlarımız, güclənən dövlətimiz barədə danışdıqca, istər-istəməz müstəqilliyimizin ilk illərində ölkəmizdə baş verən hadisələr, ağır siyasi proseslər gözümüzün önündə canlanır. Vəziyyətin son dərəcə kəskinləşdiyi, müstəqilliyimizin, gələcəyimizin sual altına düşdüyü 1993-cü ilin isti iyun günlərində təsəvvür belə edə bilməzdik ki, Azərbaycan nə vaxtsa möhtəşəm inkişafa nail olacaq, regionda və dünyada söz sahibi olan dövlətə çevriləcək. Çünki o dövrdə insanların sabaha olan inamları itmişdi. Xaos, anarxiya, hakimiyyətdə olan qüvvələrin səbatsızlığı ölkəni uçuruma aparırdı.

Həmin qanlı-qadalı günlərdə bütün nəzərlər haqlı olaraq Naxçıvana dikilmişdi. Çünki hər kəs yaxşı anlayırdı ki, ölkəni düşdüyü vəziyyətdən yalnız və yalnız görkəmli dövlət xadimi Heydər Əliyev xilas edə bilər. Xalqın təkidli tələbini nəzərə alan Heydər Əliyevin 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya gəlişi insanların məhv olmuş ümidlərini özünə qaytardı, sabaha olan inamlarını bərpa etdi. Yadımdadır ki, həmin ağrı-acılı günlərdə hər kəs necə sevinirdi. Ağır sarsıntılar içərisində üzülən insanlar həmin gün dərindən nəfəs aldılar, sanki çiyinlərdən ağır yük götürüldü.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə respublikamızın müstəqillik tarixində tamamilə yeni mərhələnin təməli qoyuldu. Hakimiyyət sükanı arxasına keçməklə Heydər Əliyev müstəqilliyimizin başının üstünü almış bütün təhlükələri dəf etdi. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi və ölkəyə rəhbərliyə başlaması ilə Azərbaycanın tarixində yeni dövrünqurtuluş və inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Hələ sovetlər dövründə Azərbaycanı aqrar respublikadan sənaye respublikasına çevirən Heydər Əliyev iqtisadiyyatı tənəzzüldən çıxardı, o cümlədən sənayenin inkişafına böyük töhfələr verdi. Sabitliyin bərqərar olunması, normativ-hüquqi bazanın formalaşdırılması, islahatlar nəticəsində sənayedəki tənəzzül tədricən aradan qaldırıldı. Kimya, metallurgiya, elektroenergetika, meşə, yüngül, yeyinti və digər sənaye sahələrində artım müşahidə olundu.

Azərbaycanın bugünkü inkişafı və uğurları Heydər Əliyev yolunun davamının nəticəsidir. Ulu Öndərin əsasını qoyduğu inkişaf strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilməsi ölkə iqtisadiyyatının daha da yüksəlməsinə yol açdı. Cənab İlham Əliyevin prezidentliyi dövründə iqtisadiyyatda baş verən köklü dəyişikliklər sənayedən də yan ötmədi. Yeni neft strategiyasının uğurla həyata keçirilməsi, sənaye sahələrinin, xüsusilə qeyri-neft sənayesinin şaxələndirilməsi, yeni müəssisələrin yaradılması bu sahənin inkişafını daha da sürətləndirdi. İqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində aparılan işlər, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası qeyri-neft sahələrinin, xüsusilə emal sənayesinin inkişafına zəmin yaratdı. Təsadüfi deyil ki, ötən 18 ildə sənaye məhsulu istehsalının həcmində əhəmiyyətli artım baş verib.

Bütün bunlar göstərir ki, Azərbaycan Heydər Əliyevin 1993-cü ilin iyunundan sonra yaratdığı tarixin yeni mərhələsini yaşayır. Vətən müharibəsindəki Qələbə isə təsdiq etdi ki, dövlətimizin nailiyyətləri davamlıdır və Azərbaycan hər zaman dünya birliyində öz layiqli yerini tutacaq.

"Azərbaycan"